**Heydər baba**

Xalqımın dilində, belə məsəl var
Mən deyim, eşitsin bütün insanlar
Deyirlər: "Zər qədrin, zərgərlər bilər"
Zərin də eşqindən, qəlblər sevinər.

Sən bir kitab idin, ay Heydər baba?
Səni oxumağa, zaman nə lazım?
Üzündə, gözündə yazılıb hər şey
Bunları anlayan çox arif  lazım.

Bu kitab tanrıdan hədiyyə gəlmiş
Zəkayla, idrakla göyə yüksəlmiş,
Bütün peşələrin bilik toplusu
Sənin məntiqində canlandı, bil ki!

Məsum körpəiəri aldın əlinə,
Sığal çəkdin, onların tellərinə
"Gələcək sizindir!" sözünü dedin
Körpə balalara çox ümid verdin.

Bizə ilham verdi, arzun, muradın,
Mənalı baxışın, məğrur duruşun,
Səninlə fəxr edir, hər oğlun, qızın,
Tezliklə gəlib çatdı "85 yaşın",
Ruhunuz şad olsun, ay Heydər baba.

***Qocayeva Mirvari***

***Planet. – 2008. – 6-12 may. – S.2.***